**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ELMƏDDİN NİZAMƏDDİN OĞLU HƏMİDOV**

# HÜQUQİ NİHİLİZM VƏ HÜQUQİ DAVRANIŞ

**İxtisas**: 5606.01 – «Dövlət və hüquq nəzəriyyəsi və tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi»

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

**Dissertasiya işi Bakı Dövlət Universitetinin «Dövlət və hüquq nəzəriyyəsi və tarixi» kafedrasında yerinə yetirilmişdir**

**Elmi rəhbər:** *Azərbaycan MEA-nın müxbir üzvü, Azərbaycan Respublikasının Əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor* **M. F. MƏLİKOVA**

**Rəsmi opponentlər:**
– *hüquq üzrə elmlər doktoru* **Ə.İ. HÜSEYNOV**
– *hüquq üzrə fəlsəfə doktoru* **D.M. MƏMMƏDOVA**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

Dissertasiya işinin müdafiəsi "_30__" ___03______ 2016-cı il tarixdə saat "___" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "_________" 2016-cı ildə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə. Q. MƏMMƏDOV**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Azərbaycan Respublikasında köklü islahatların həyata keçirilməsi nəticəsində yeni hüquqi sistem təşəkkül tapmışdır. Lakin əhalinin müəyyən bir hissəsində hüquqi nihilizm kimi neqativ sosial halın mövcudluğu demokratik təsisatların normal fəaliyyətinə maneçilik törədir. Şübhəsiz, hüquqi nihilizmi doğuran səbəblərin nəzərə alınmaması, hüquqi institutların inkar edilməsi cəmiyyət üçün bir təhlükə mənbəyidir və onun üzvlərinin hüquq və maraqlarına böyük ziyan vura bilər. Bununla əlaqədar olaraq, fərdi və ictimai düşüncədə baş verən əsas proseslərin, sosial-mənəvi dəyərlərin bir tənzimləyici vasitə kimi ictimai münasibətlərə təsirinin, hüquqauyğun davranışı şərtləndirən amillərin hərtərəfli təhlilinə böyük ehtiyac duyulur. Bu baxımdan hüquqi nihilizmin mahiyyəti və rolunun açıqlanması, onun hüquq düşüncəsinin deformasiyaya məruz qalmış bir forması, habelə hüquqazidd davranışın mənəvi əsası kimi tədqiq edilməsi olduqca aktualdır.

Müasir dövrdə nihilizm və hüquqazidd davranışla mübarizə cəmiyyətdə bütün sosial, iqtisadi, siyasi, mənəvi, əxlaqi xarakterli neqativ halların aradan qaldırılması üzrə fəaliyyət çərçivəsində aparılmalıdır. Bu istiqamətdə müsbət nəticələr həmçinin vətəndaşların özlərinin hüquqauyğun fəal davranışından, onların neqativ hallara qarşı aktiv münasibətindən də çox asılıdır. Destruktiv sosial-hüquqi amillərin təsirinin aradan qaldırılması işinə yaxından kömək etmək və imkan daxilində qanunun gücünü və nüfuzunu qaldırmaq naminə hər kəs daimi olaraq və səylə çalışmalıdır. Ancaq hüquqi nihilizm və hüquqazidd davranışın aradan qaldırılmasında, şübhəsiz, həlledici rolu hüquqi doktrina oynamalıdır. Hal-hazırda bəzi tədqiqatçılar müasir cəmiyyətin inkişaf istiqamətlərini araşdırarkən sosial davranış formalarının xarakterində ayrı-ayrı yayınmaları qeyd edirlər. Bu yayınmaların səbəb və formaları müxtəlif olsa da, müasir hüquq nəzəriyyəsi bunların sistemli şəkildə öyrənilməsini tələb edir.

Hüquqi nihilizm və hüquqazidd davranışın tədqiq edilməsinin aktuallığı həmçinin ölkəmizdə aparılan islahatların başlanğıcında duran strateji məqsədlərlə də müəyyən edilir. Bu, ən əvvəl, Azərbaycan Respublikasında hüquqi dövlətin bərqərar olması istiqamətində aparılan məqsədyönlü fəaliyyətdir. Hüquqi dövlət ilk növbədə hüquqi tənzimetmənin dəqiqliyini, hüququn yüksək nüfuzunu, hər kəs tərəfindən hüquqa hörmətlə yanaşmasını nəzərdə tutur. Lakin əhalinin müəyyən

hissəsində hüquqa dair nihilist münasibətin olması hüququn cəmiyyətdəki tənzimləyici rolunu azaldır, hüquqi dövlətin bərqərar olmasına, hüquqauyğun davranışın hökm sürməsinə maneə olur. Bu mənada şəxsin davranış komponentindəki «qüsurları» aradan qaldırmaq üçün hüquqi nihilizmin yalnız vətəndaşların hüquq mədəniyyəti və hüquq düşüncəsinin deformasiyası kimi tədqiqi kifayət deyildir. Fikrimizcə, buna nail olmaq üçün hüquqi nihilizmi həmçinin sosial-mədəni həyatın bir təzahürü kimi dərindən təhlil etmək lazımdır.

Son illər elmi və praktiki işçilər tərəfindən sabit hüquq qaydasının yaradılması mövzusuna tez-tez müraciət edilir. Cəmiyyətdə qanunçuluğun bərqərar olmasının insanların əxlaqi-hüquqi görüşlərinin vəziyyətindən asılılığı qeyd edilir, sosial dəyərlərə və cəmiyyətin özünün inkişaf yollarına münasibətdə cəmiyyət üzvləri arasında birliyin olmasının mühümlüyü vurğulanır. Bununla əlaqədar olaraq hüquqi nihilizmin cəmiyyətin davamlı inkişafına təhlükə yaradan, hüquqazidd davranışı stimullaşdıran amil qismində də araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Buradan da nihilizmin bir sosial-fəlsəfi hadisə kimi təhlilinin aktuallığı ortaya çıxır. Məhz bu baxımdan cəmiyyətin tarixi və psixoloji köklərinin, köhnə cəmiyyətin neqativ irsi ilə əlaqəsinin, müəyyən sosial dəyərlərin böhranının, vətəndaş cəmiyyəti institutlarının inkişafının araşdırılması labüddür. Hüquq sahəsində nihilist münasibət hüquqi nihilizm və hüquq pozuntusu formasında təzahür edir. Bunlar vətəndaşlarda yüksək hüquq düşüncəsinin formalaşmasına mane olur. Hətta çoxsaylı qanunların qəbulu onların göstərişlərinin cəmiyyətin bütün üzvləri tərəfindən hələ də ali dəyər kimi qəbuluna səbəb olmamışdır. Cəmiyyət üzvlərinin bəzi hissəsinin hüquqi biliklərinin məhdudluğu və qüvvədə olan qanunların göstərişlərinə hörmətsizliyi ölkədə aparılan islahatlar üçün bir təhlükə mənbəyidir. Bununla əlaqədar olaraq, belə neqativ halların səbəblərinin aşkar edilməsinə və ölkəmizdə qanunların hazırkı nüfuzunun artırılmasına xidmət edən sistemli tədbirlər kompleksinin hazırlanması istiqamətində müvafiq işlərin aparılması zəruridir. Bu vəziyyət hüquqi təbliğatın inkişafı sahəsində uzunmüddətli hüquqi siyasətin əsaslarının təyin edilməsinin zəruriliyini bir daha təsdiqləyir.

Hüquq subyektləri tərəfindən «əsl hüquq» (ideal hüquq normaları) və rəsmi qanunun süni şəkildə fərqləndirilməsi də vətəndaşlar arasında hüquqi nihilizmin yayılmasına şərait yaradan səbəblərdən biridir.

Müasir dövrdə Azərbaycan Respublikasında hüquqi islahatların həyata keçirilməsi zamanı böyük nailiyyətlər əldə edilsə də, qısa müddət

ərzində köhnə hüquq sisteminin bütün qüsurlarının (hüquq mədəniyyətinin aşağı səviyyəsi, təbii hüquqlara etinasızlıq, ümumbəşəri hüquqi dəyərlərin və idealların bəzi şəxslər tərəfindən inkar edilməsi və s.) aradan qaldırılması obyektiv səbəblərdən çətin bir prosesdir.

Hal-hazırda hüquqi nihilizmin təzahürlərinin aradan qaldırılmasının əsas şərti qismində hüquq mədəniyyətinin yüksək səviyyəsinin təmin olunması çıxış edir. Cəmiyyətin hüquq mədəniyyətinin yüksək səviyyəsi şəxsiyyətin azadlığının və təhlükəsizliyinin, insanın hüquqlarının səmərəli müdafiəsinin və vətəndaş fəallığının mühüm təminatıdır. Hüquq mədəniyyətinin yüksək səviyyəsi həm də cəmiyyətin inkişafının göstəricisidir və şəxsin hüquqauyğun davranışı üçün lazımi zəmin yaradır. Hüquqauyğun davranışın ən yüksək təzahürü isə hüquqauyğun fəal davranışdır. Bu, şəxsin həm normayaratma, həm də hüquq tətbiqetmə sahəsində aktiv, düşünülmüş, yaradıcı hərəkətlərində ifadə olunur. Bu isə qanunun cəmiyyətdə ali dəyər kimi qəbul olunduğu zamanı mümkündür.

**Mövzunun işlənmə dərəcəsi**. Müasir dövrdə Azərbaycan dövləti yalnız ölkədə ümumi hüquq mədəniyyətinin yüksəldilməsi məsələsini deyil, həm də cəmiyyətin ayrı-ayrı üzvlərinin qüvvədə olan hüquqa sosial-neqativ münasibətinin ardıcıl şəkildə aradan qaldırılması məsələsinin həllini bir məqsəd olaraq qarşısına qoymuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin I hissəsinə əsasən, «Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır». Bu o deməkdir ki, Azərbaycan Respublikasında qanuna, qaydalara, insan hüquq və azadlıqlarına hörmət əsas rol oynayır, bunlar ali sosial dəyərlər hesab edilir və «dövlət hər bir kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir» (Konstitusiyanın 26-cı maddəsinin II hissəsi). Lakin Azərbaycan Respublikası Konstitusiyasının elan etdiyi bu və digər humanist ideyaların reallaşmasına müxtəlif neqativ amillər mane olur ki, bunlardan biri də hüquqi nihilizmdir. Məhz onun təsiri Azərbaycan Respublikasında demokratik islahatların keçirilməsini xeyli ləngidə bilər.

Bununla yanaşı, son dövrə kimi Azərbaycan hüquq doktrinasında hüquqi nihilizmin hərtərəfli tədqiq edilməsi məsələsinə kifayət qədər diqqət yetirilməmiş və həmin halın aradan qaldırılmasına dair kompleks yanaşma işlənib hazırlanmamışdır. Bu ilk növbədə hüquqi nihilizmin mürəkkəb, çoxcəhətli sosial hadisə olmasından irəli gəlir. Buna baxmayaraq hal-hazırda hüquqi nihilizm yalnız hüquq doktrinasının deyil, həmçinin praktiki işçilərin maraq obyekti qismində çıxış edir.

Hüquqi nihilizm probleminə, onun hüquqauyğun davranışa neqativ təsiri məsələsinə elmi maraq XX əsrin 80-90-cı illərində artmışdır. Bu dövr onun təzahürlərinin geniş xarakter alması ilə xarakterizə olunur. Məhz həmin dövrdə hüquqi nihilizmin müxtəlif aspektlərinə, həmçinin nihilizmin əxlaqı, siyasi və s. formalarına həsr olunmuş elmi əsərlər yaranmışdır. Belə ki, hüquqi nihilizm probleminə A.S.Bondarev, V.İ.Qoyman, A.İ.Demidov, L.Q.Kumıkova, L.A.Luşina, D.Y.Maleşin, N.İ.Matuzov, N.L.Nazarova, A.İ.Novikov, N.İ.Polişuk, R.A.Romaşov, V.Q.Safonov, V.B.Tkaçenko, V.A.Tumanov, Q.N.Utenkov, K.Q.Fedorenko, Y.Q.Şukşina s. kimi müəlliflərin tədqiqatlarında geniş yer verilib.

Tanınmış milli hüquqşünaslarımızdan Z.A.Əsgərov, M.F.Məlikova, S.A.Mirzəyev, T.R.Rzayev və başqaları öz əsərlərində bu problemə qismən olaraq hüquq qaydalarının möhkəmləndirilməsi, qüvvədə olan qanunvericilikdəki çatışmazlıqların aradan qaldırılması, hüquq normalarının təsirinin artırılması aspektində toxunmuşlar.

Bununla belə, təəssüflə qeyd edilməlidir ki, milli hüquq elminin hazırkı mərhələsinə qədər hüquqi nihilizmlə hüquqi davranışın nisbətinə dair vahid yanaşma formalaşmamışdır. Belə ki, hüquq düşüncəsindəki qüsurları, hüquq mədəniyyətinin çatışmazlıqlarının aradan qaldırılmasının zəruriliyi, həmçinin hüquq tərbiyəsinin effektivliyinin artırılmasının vacibliyini vurğulayan milli hüquq nəzəriyyəçiləri, praktik olaraq, hüquqi nihilizmin səbəb və mənbələrinə, milli xüsusiyyətlərinə, təzahür formalarına, habelə Azərbaycan Respublikasında bu neqativ sosial hadisənin aradan qaldırılmasının əsas yolları məsələlərinə kifayət qədər toxunmurlar.

Yuxarıda qeyd edilənlər dissertasiya işinin mövzusunun seçilməsini şərtləndirmişdir.

**Tədqiqatın obyekti** qismində sosial-hüquqi dəyərlərin inkarı ilə ifadə olunan hüquqi nihilizmin təbiəti, habelə hüquqazidd davranış mexanizmində bu hüquqi hadisənin rolu çıxış edir.

**Tədqiqatın predmeti** hüquqi nihilizmin aradan qaldırılması, o cümlədən hüquqauyğun davranışın təmin edilməsi problemidir.

**Tədqiqatın məqsədi**. Dissertasiyada hüquq subyektlərinin davranışının sosial, psixoloji və mənəvi əsaslarını nəzərə almaq məqsədilə hüquqi nihilizmin kompleks şəkildə nəzəri-hüquqi təhlili aparılmış, hüquqi nihilizmin aradan qaldırılması və hüquq pozuntularının profilaktikası üzrə təsirli təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın vəzifələri onun obyekti və predmetinə uyğun olaraq aşağıdakılardan ibarətdir:

1) hüquqi nihilizmin və hüquqauyğun davranışın anlayışlarını vermək;
2) hüquqi nihilizmin, habelə hüquqauyğun davranışın əsas təzahür formalarını xarakterizə etmək;
3) hüquqauyğun davranışın hüquqi və psixoloji ünsürlərini müəyyənləşdirmək;
4) hüquqi nihilizmin və hüquqazidd davranışın mənbə və səbəblərini açıqlamaq;
5) hüquqi nihilizmin və hüquqazidd davranışın aradan qaldırılmasının zəruri yollarını əsaslandırmaq.

**Tədqiqatın metodoloji əsası**. Dissertasiyada qarşıya qoyulan məqsədlərə nail olmaq üçün müəllif dialektik idrak metodundan, ümumi elmi metodlardan (analitik, məntiqi, tarixi, sistemli və struktur yanaşmalardan) geniş istifadə etmişdir. Bundan əlavə, tədqiqatda xüsusi-elmi metodlardan (müqayisəli-hüquqi, formal-hüquqi, struktur-funksional) da istifadə edilmişdir.

Tədqiqat prosesində hüquq nəzəriyyəsinin konseptual müddəaları, müxtəlif elm sahələrindən olan alimlərin – hüquqşünasların, tarixçilərin, filosofların, sosioloqların və s. elmi işləri araşdırılmışdır.

**Dissertasiya tədqiqatının normativ və empirik bazasını** 1995-ci il Azərbaycan Respublikasının Konstitusiyası və qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, həmçinin geniş xüsusi ədəbiyyat siyahısı təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** hüquqi nihilizmin hüquq düşüncəsinin deformasiyası kimi kompleks şəkildə nəzəri-hüquqi təhlilindən, həmçinin bu hadisənin səbəb və mənbələrinin aradan qaldırılması üçün praktik yönümlü təklif və tövsiyələrin hazırlanmasından ibarətdir. Belə ki, dissertasiya işində aşağıdakılar öz əksini tapmışdır: hüquqi nihilizm və hüquqazidd davranış sosial-tarixi hadisə kimi təhlil edilmiş, onların mahiyyət və məzmunu açıqlanmış, qarşılıqlı nisbətinin əsasları göstərilmişdir; hüquqi nihilizmin əsas səbəb və mənbələri aşkar edilmiş, bunların qarşısının alınmasının yolları müəyyən edilmişdir; hüquqi nihilizmin strukturu, forma və səviyyələri göstərilmişdir; hüquq pozuntularının sayının azaldılması üzrə tövsiyələr verilmişdir; pozitiv davranış tipinin formalaşdırılmasının əsasları müəyyən edilmişdir; hüquqi nihilizmin hüquq pozuntularını stimullaşdıran amil kimi aradan qaldırılması yolları (vətəndaşların hüquq mədəniyyətinin yüksəldilməsi; qanunvericiliyin təkmilləşdirilməsi; hüquq pozuntularının profilaktikası; qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi; insan hüquq və azadlıqlarının

səmərəli müdafiə mexanizminin mövcudluğu; əhalinin hüquqi maarifləndirilməsi; peşəkar hüquqşünas hazırlığının yüksəldilməsi və s.) təklif edilmişdir.

**Tədqiqatın müdafiəyə çıxarılan yeni elmi müddəaları**:

– hüquqi nihilizmə dair müəllif şərhi verilir və buna müvafiq olaraq, mənfi sosial-hüquqi hadisə kimi formalaşmasında tarixi qalıqları özündə əks etdirməklə hüquqi nihilizmin cəmiyyət və onun hüquq sisteminin inkişafına mane olan sosial-mədəni qüsur kimi çıxış etməsi göstərilir;

– hüquqi nihilizmin hüquqi dəyərləri universal sosial tənzimləyici kimi inkar etməklə və onlara etinasızlıq göstərməklə məntiqi olaraq hüquq subyektini hüquqazidd davranışa sövq etməsi açıqlanır;

– cəmiyyətin müxtəlif zümrələrinin içərisində daha çox sıravi vətəndaşlarda, peşəkar hüquqşünaslarda və dövlət qulluqçularında hüquqi nihilizmin təzahürlərinin formalaşması müəyyən edilir;

– cəmiyyətin davamlı inkişafı pozitiv davranış formalarının dəstəklənməsini, habelə vətəndaşların fəallığını və təşəbbüskarlığını tələb edir. Nihilist dünyagörüşünün ünsürləri isə məhz bunlara qarşı çıxış edir. Bu baxımdan hüquqi nihilizmin aradan qaldırılması yalnız hüquq qaydasının qorunması üzrə sərt tədbirlərin görülməsi vasitəsilə mümkün deyil. Pozitiv davranış formalarının bərqərar olması yalnız vətəndaş cəmiyyəti institutlarının inkişafı və vətəndaş fəallığının mövcudluğu şəraitində mümkündür;

– hüquqi nihilizmin iki formasının – qüvvədə olan qanunların pozulması ilə müşahidə olunan aktiv hüquqi nihilizmin və passiv hüquqi nihilizmin fərqləndirilməsi təklif olunur. İkinci forma əhalinin bir qisminin hüquqi savadsızlığı ilə, hüquqa münasibətdə adi etinasızlıqla xarakterizə olunur;

– hüquqi nihilizmin, o cümlədən hüquqazidd davranışın əsas şərtlərinin aradan qaldırılmasının mühüm əhəmiyyət ondan ibarətdir ki, hüquq pozuntuları hüquqi nihilizmin ən radikal ifadə forması olaraq insanlarda qanunun cəmiyyətdə qayda və əmin-amanlıq yaratmaq qabiliyyətinə inamını qırır;

– hüquqi nihilizmin deformasiyaya uğramış, məhdud hüquqi biliklərə əsaslanan, cəmiyyətdə qəbul edilmiş hüquqi göstərişlərə şüurlu şəkildə etinasızlıq göstərən hüquq düşüncəsinin təzahürü kimi çıxış etməsi;

– hüquq düşüncəsinin deformasiya forması qismində çıxış edən hüquqi nihilizmin strukturunda bir-biri ilə bağlı olan üç elementin (ideologiya, psixologiya və davranış komponenti) mövcudluğu;

–hüquqi nihilizmin aşağıdakı üç formasının mövcudluğu təsdiq edilir:

1) sadəlövh, hüquq düşüncəsi inkişaf etməmiş, hüququ bir sosial dəyər kimi qəbul etməyən şəxslərə xas olan hüquqi nihilizm;

2) hüquq subyektlərində gerçəkliyin xülyalarla əvəz olunmasına yönələn hüquqi nihilizm;

3) hüquq pozuntuları ilə müşahidə olunan hüquqi nihilizm.

–hüquqi nihilizmin qarşısının alınmasının, fəal hüquqauyğun davranış modelinin təsdiqinin cəmiyyət həyatının obyektiv şəraitinin dəyişməsini, məqsədyönlü ideoloji, təşkilati işlərin aparılmasını, həmçinin xüsusi hüquqi tədbirlərin həyata keçirilməsini nəzərdə tutan uzunmüddətli proses olmasının əsaslandırılması;

–hüquqi nihilizm və hüquqazidd davranışın təhlili zamanı bu neqativ hüquqi halların zahiri təzahürləri (bəzi dövlət qulluqçularının hüquqi mədəniyyətinin aşağı səviyyəsi; peşəkarlığın lazımi səviyyədə olmaması, zəruri bilik və bacarığın olmaması; qüvvədə olan qanunvericiliyə və qanunçuluq prinsipinə neqativ münasibət və s.) aydın göstərilir;

–hüquqi dövlət quruculuğu ictimai şüurda pozitiv hüquqi dəyərlərin formalaşması ilə müşayiət olunur. Bunlar sosial normaların inkişafının əsasını təşkil edir, cəmiyyətin konsolidasiyasının vacib şərtidir, hüquqi nihilizmin aradan qaldırılması mexanizminin mühüm elementidir;

–hüquqi nihilizmin qarşısının alınması və hüquqazidd davranışın profilaktikası üzrə dövlət siyasətinin əsaslarının tərkibi və məzmununun aşağıdakı kimi ifadə olunması təklif edilir: hüquqi maariflənmə; hüquqi bilikləri genişləndirmək məqsədilə ayrı-ayrı təhsil müəssisələrini hüquq üzrə kitab və vəsait ilə təchiz etməklə gənc nəslin hüquqi təhsilinin və tərbiyəsinin təmin edilməsi; hüquqi təhsil sisteminin təkmilləşdirməsi; vətəndaşların yüksək hüquq mədəniyyəti və hüquq düşüncəsinin formalaşdırılmasına xidmət edən kütləvi informasiya vasitələrinin fəaliyyətinin yenidən qurulması; dövlət orqanlarının qanunçuluğun və hüquq qaydasının təmin edilməsi üzrə fəaliyyətinin təkmilləşdirilməsi; peşəkar hüquqi yardımın inkişafı və s.

**Tədqiqatın elmi və praktik əhəmiyyəti**. Dissertasiyanın nəzəri müddəaları və nəticələri milli qanunvericilik sisteminin təkmilləşməsinə, ümumi hüquqi kateqoriya və anlayışların məzmununun dəqiqləşdirilməsinə kömək edə bilər.

Tədqiqat işinin əsas müddəaları yalnız ümumi dövlət və hüquq nəzəriyyəsi çərçivəsində deyil, həm də hüquq subyektlərinin hüquq

düşüncəsinə və hüquqauyğun davranışlarına neqativ təsir göstərən problemlərin nəzərdən keçirilməsi ilə bağlı olan elmi tədqiqat sahələrində, habelə cəmiyyətdə hüquqi biliklərin və hüquq mədəniyyəti səviyyəsinin yüksəldilməsinə yönəldilmiş təlim və tərbiyə proseslərində tətbiq edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının iclaslarında müzakirə olunmuşdur.

Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin müvafiq mövzu üzrə dərc edilmiş elmi məqalələrində, habelə 10 dekabr Beynəlxalq insan hüquqlarına həsr edilmiş «Qloballaşma dövründə insan hüquqları və milli hüquq sistemləri» mövzusunda beynəlxalq elmi-praktiki konfransın (13-14 dekabr 2012-ci il), Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş «Dövlət və hüquq quruculuğunun aktual problemləri» mövzusunda XIII Respublika elmi-praktiki konfransın (6 may 2013-cü il) materiallarında əks olunmuşdur.

**Dissertasiya tədqiqatının strukturu.** Dissertasiya girişdən, on yarımfəsli əhatə edən üç fəsildən, nəticə hissəsindən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin giriş hissəsində** mövzunun aktuallığı, tədqiqatın məqsəd və vəzifələri izah olunur, obyekti və predmeti, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın metodologiyası, empirik bazası, elmi yeniliyi, dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti qeyd edilir, həmçinin tədqiqatın nəticələrinin aprobasiyası verilir.

**I fəsil «Hüquqi nihilizmin anlayışı və mahiyyəti» adlanır və özündə beş yarımfəsli birləşdirir**.

«**Hüquqi nihilizm sosial-tarixi hadisə kimi**» adlanan **birinci yarımfəsildə** qeyd olunur ki, müasir dövrdə hüquqi nihilizm yalnız mücərrəd fəlsəfi düşüncənin obyekti deyil, həm də praktik məsələlərin yerinə yetirilməsinə mane olan problemdir, bu da onun müxtəlif aspektlərdə təzahür etdiyini göstərir. Sosial-psixoloji amillər nihilizmin məzmununu tam əhatə etmirlər. Nihilizm düşüncə tərzi olaraq subyektin praktiki davranışını da bir element kimi nəzərdə tutur.

Hüquq nihilizminin yaranması yalnız ictimai mühitin neqativ

konkret-tarixi şəraiti (siyasi, sosial-iqtisadi) ilə deyil, həmçinin cəmiyyətin sosial-tarixi inkişafının qüsurları ilə şərtlənir.

Nihilizmin meydana gəlməsi şərtlərinin tədqiqi belə bir nəticə çıxarmağa imkan verir ki, bu, yalnız cəmiyyət üzvlərinin yüksək mədəniyyətə və dünyagörüşünə malik olmadığı halda mümkündür. Çünki bunların mövcud olmaması vətəndaşlar tərəfindən həmin cəmiyyətin əsasını təşkil edən dəyərlərin qəbul edilməməsi, vətəndaşların özlərinin bu cəmiyyətin ayrılmaz hissəsi kimi dərk etməməsi deməkdir.

**Ikinci yarımfəsil «Hüquqi nihilizmin mahiyyəti»** adlanır. Burada qeyd olunur ki, hüquqi nihilizm cəmiyyətdə maraqların alternativ tənzimetmə vasitələri haqqında təsəvvürlər, hüququ neqativ sosial hadisə kimi xarakterizə edən qeyri-hüquqi konsepsiyalar şəklində təzahür edir. Nihilist hüquqi ideyalar nəinki hüququn əhəmiyyətsizliyinin sistemləşdirilmiş məntiqi-normativ əsaslandırmaları şəklində, hətta hüquq haqqında sistemləşdirilməmiş nihilist psixoloji-dəyər təsəvvürləri şəklində də formalaşa bilər.

Hüquqi nihilizm həm norma yaradıcılığı prosesində, yəni dövlət orqanlarının normayaratma fəaliyyəti zamanı, həm də ictimai-hüquqi ideyaların tətbiqi mərhələsində də öz əksini tapır. Məsələn, normayaratma sahəsində bu, ən əvvəl, bir-biri ilə ziddiyyətdə olan, paralel və ya bir-birini istisna edən hüquqi aktların qəbulu ilə bağlıdır.

Müəllifin gəldiyi qənaətə görə, hüquqi nihilizm hüquq düşüncəsinin həm ideoloji, həm də psixoloji hissəsidir və hüquqa hörmət və itaət tələblərinə sərt tənqidi, mənfi münasibət bəsləyir. Hüquqi nihilizm neqativ hüquqi hisslərin, emosiya və əhvalların mexaniki məcmusu deyil, bütöv bir sosial hadisədir.

**«Hüquqi nihilizmin mənbə və səbəbləri»** adlanan **üçüncü yarımfəsildə** qeyd olunur ki, hüquqi nihilizmin mənəvi mənbəyi qismində mövcud hüquqa dair radikal neqativ münasibət çıxış edir. Bu zaman cəmiyyətin bəzi nümayəndələri bütün mümkün inkişaf yollarından ən radikal istiqamətdə olanına üstünlük verir. Əlbəttə, bu, dərhal arzu olunan nəticəni əldə etmək cəhdi ilə bağlıdır. Lakin hər halda bu seçimin dərin səbəbi, ən əvvəl, mövcud qaydanın ləğvinə nail olmaq, hər şeyi yenidən başlamaq, reallığa uyğun gəlməyən vəziyyəti bərqərar etmək istəyindən irəli gəlir.

Hüquqi nihilizm zamanı insanın düşüncəsində parçalanma, hüquqa-uyğun davranış təyinatlarının itirilməsi, xeyir və şər haqqında təsəvvürlərin qarışması baş verir. Müvafiq olaraq, tərəqqini təmin etmək üçün yaranan hüquq mənfi mənada, yalnız şəxsin azadlığını məhdudlaşdıran

hadisə kimi qavranılmağa başlanır.

Cəmiyyətdə qanunlara dərin hörmət ənənəsinin olmaması da hüquqi nihilizmin davamlılığına təsir göstərir. Həmçinin hüquqi nihilizmin sosial-psixoloji, mikrososial və informatik səbəbləri mövcuddur. Hüquqi nihilizmin sosial-psixoloji səbəbləri sırasına ictimai şüurda hüquqi dəyərlərin təhrif edilməsi və nüfuzdan salınmasını daxil etmək lazımdır. Hüquqi nihilizm özbaşınalıq, narkomaniya, alkoqolizm kimi neqativ sosial hadisələri qidalandırır. Cinayətkarlığın yüksək səviyyəsi də hüquqi nihilizmi doğura bilər. Bunların şahidi olan insanlar hüquqa inamlarını itirir, onun belə halların qarşısını almaqda acizliyini dərk edirlər. İnsanlarda mövcud hüquq institutlarına qarşı skeptik münasibət yaranır. Nəticədə subyekt hüquqi nihilizm mövqeyində dayana bilər.

**Dördüncü yarımfəsil «Hüquqi nihilizmin strukturu və səviyyələri»** adlanır. Burada göstərilir ki, hüquqi nihilizm bir sosial-hüquqi hadisə kimi mürəkkəb struktura malik olduğundan mahiyyət etibarilə öz elementlərinin məcmusu və qarşılıqlı əlaqəsi ilə təzahür edir. Əgər sosial qaydanın strukturu onun tərkibində müstəqil ünsürləri ayırmağa imkan verirsə, ictimai şüurun strukturu bu cəhətdən öz xüsusiyyəti ilə seçilir. İctimai şüurun strukturunda ayrı-ayrı elementlərin yerini müəyyənləşdirmək çətindir, çünki onlar üzvü şəkildə əlaqədədirlər və bir-birinə qarşılıqlı təsir göstərirlər. Hər bir halda hüquqi nihilizmin strukturunun tədqiqi zamanı hüquqi nihilizmin konkret tərkib elementləri, onun əsas elementlərinin daxili əlaqələri və bu hüquqi hadisənin spesifik xüsusiyyətləri nəzərə alınmalıdır.

Dissertasiya işində hüquqi nihilizmin strukturunda üç əsas element (ideoloji, psixoloji və davranış komponentləri) fərqləndirilir. Gerçəklikdə hər üç komponent bir-biri ilə sıx bağlıdır, onların bir-birinə qovuşması və qarşılıqlı təsiri hər zaman müşahidə edilir. Bununla əlaqədar olaraq, bəzən onları bir-birindən ayırmaq çox çətin olur. Hər bir halda ideologiya və psixologiya defektli hüquq düşüncəsi daşıyıcısının davranışını dərindən təhlil etmək üçün bir «süzgəc»dir. Belə ki, hüququn öz funksiyalarını gerçəkdən yerinə yetirməsi üçün onun təbiətini, məqsəd və əsaslarını hüquqi ideologiya və hüquqi psixologiya vasitəsilə düzgün dərk etmək və bunları iradə və həyat fəaliyyətinin (ictimai münasibət subyektinin davranışı) predmetinə çevirmək zəruridir. İnkişaf etmiş hüquq düşüncəsi şəraitində hüququn rolu düzgün dərk edilir, cəmiyyətin tələbatına müvafiqlik meyarları nöqteyi-nəzərindən ona qiymət verilir, qüvvədə olan qanunvericilik sisteminin zəruriliyi dərk edilir, hüquq

tətbiqetmə fəaliyyətinin nəticələri qavranılır.

Hüquq düşüncəsinin neqativ xarakterli təzahürü olan hüquqi nihilizm öz daxili strukturunun quruluşunda bütün şüur formaları üçün bir sıra ümumi qanunauyğunluqlara malikdir.

«**Hüquqi nihilizmin formaları**» adlanan **beşinci yarımfəsildə** hüquqi nihilizmin müxtəlif təzahür formaları təhlil olunur. Hüquqi nihilizmin ifadə formaları tədqiq edilərkən ən əvvəl hüquq subyektləri tərəfindən qəsdən qanunların və digər normativ hüquqi aktların pozulması qeyd olunur. Bu pozuntuların əksəriyyətini cinayət qanunvericiliyi tərəfindən cəzalandırılan cinayət əməlləri, həmçinin mülki deliktlər və inzibati xətalar təşkil edir. Bununla əlaqədar hazırda sosial-siyasi quruluşun yeniləşdirilməsi, iqtisadiyyatın sürətli inkişafı şəraitində ictimai münasibətlərin bəzi sahələrinin kriminallaşmış ünsürlərdən azad edilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi xüsusi önəm daşıyır. Hüquqi bazanın mükəmməl olmaması, cəmiyyətin mənəvi və intellektual potensialının aşağı səviyyədə olması cinayətkarlığın artmasına təkan verir. Bəzən hüquq subyektləri (vətəndaşlar, vəzifəli şəxslər) öz davranışını hüquq normalarının tələblərinə uyğunlaşdırmayıb yalnız öz subyektiv «anlayış»larına uyğun olaraq yaşamağa və hərəkət etməyə çalışırlar.

Hüquqi nihilizm özünü müxtəlif formalarda təzahür edir. Lakin nihilizmin hər hansı ifadə forması hər bir halda hüquq düşüncəsinin deformasiyası ilə sıx bağlıdır. Müəllif tədqiqat işində hüquqi nihilizmin üç əsas formasını fərqləndirir. Belə ki, hüquqi nihilizmin birinci formasını hüquq qaydalarını hüquqazidd hərəkətlərdən aydın şəkildə fərqləndirmək qabiliyyətinə malik olmayan, məhdud hüquqi düşüncənin daşıyıcıları arasında geniş yayılmış sadəlövh nihilizm təşkil edir. Bu zaman subyekt hüquq normasını yalnız ümumilikdə onun maraqlarına və dünyagörüşünə uyğun olan dəyər kimi qəbul edir. Öz maraqlarını təmin edərkən isə subyekt ancaq arzu etdiyi, iradəsinə uyğun olan münasibətləri, qaydaları dəyərləndirir.

Hüquqi nihilizmin ikinci formasını şüurlu yalan təşkil edir. Hüquqi nihilizmin bu forması bəzi hüquq subyektlərinin digər subyektlər üçün hüquqi xülyaların yaradılmasında müşahidə olunur. Aldadılmış hüquq subyekti digər şəxslərin onunla hüquqauyğun davranmalarına inanır və bu səbəbdən də öz münasibətini bildirmir.

Hüquqi nihilizmin üçüncü formasını hüquq pozuntusu təşkil edir. Bu halda subyektlər özləri bilavasitə hüquqazidd davranış qaydasının hökm sürməsini arzulayırlar.

**Dissertasiya işinin üç yarımfəsildən ibarət ikinci fəsli «Hüquqi davranışın sosial-hüquqi və psixoloji cəhətləri» adlanır.**

İkinci fəslin **birinci yarımfəslində «Hüquqi davranış sosial-hüquqi aktivliyin iradəvi təzahürü kimi»** tədqiq olunur. Hüquq mövqeyindən insanın davranışı müxtəlif şəkildə qiymətləndirilə bilər. İnsanların müxtəlif münasibətləri hüquqi tənzimetmə sahəsindən kənardadır, buna görə də hüquq tərəfindən qiymətləndirilmir (məhəbbət, dostluq münasibətləri və s.) Bunlar yalnız mənəvi dəyərlər kimi ölçülür. Bəzi münasibətlər hüquqla tənzimlənmir, hüquqi cəhətdən məna tutumuna malik deyil və hüquqi vasitəçilik tələb etmir (məsələn, idmanla, musiqi ilə məşğul olmaq və s.). Hüquq doktrinası və praktikası üçün yalnız insanların hüquqi əhəmiyyət kəsb edən hərəkətləri, yəni hüquqla tənzimlənən davranış qaydaları maraq doğurur. Bu, xüsusilə hüquqauyğun davranış modelinin yaradılması mövqeyindən önəmlidir.

İnsanın şüurlu davranışı müvafiq davranışın nəticələrinin dərk edilməsi ilə xarakterizə olunur. Bu və ya digər tələbatları, öz maraqlarını anlayan insan real şəraiti təhlil edir və bu şəraitdə onun istəklərini, hisslərini, niyyətlərini təmin etməyə imkan verən mümkün davranış variantlarını təsəvvürünə gətirir. Daha sonra insan şüurunda mümkün hərəkət variantlarının «lehinə» və «əleyhinə» olan bütün dəlillər nəzərdən keçirilir və insan bunlardan daha münasib hesab etdiyi variantı seçir.

Bir qayda olaraq, şəxsin tələbat və maraqları hüquqauyğun davranış motivlərinin əsası kimi çıxış edir. Subyektin tələbat və maraqları, habelə təsəvvürləri əsasında hüquqauyğun və ya hüquqazidd xarakter daşıyan konkret hərəkətin niyyətləri formalaşır. Lakin tələbat və maraqlardan fərqli olaraq, motivlər insanın hərəkətlərinin əsas daxili mənbələrinə aid deyil. Hətta insanın tələbat və maraqlarının ən dərin təhlili belə onun konkret davranış variantını seçmə səbəblərini açıqlamaq iqtidarında deyildir. Müəllifin fikrincə, bunu yalnız insanın davranış motivlərini öyrənməklə izah etmək olar. Əgər tələbat və maraqlar daxili köklənmənin mənbəyini, gələcək davranışın seçim və istiqamətinin əsasını açıqlayırsa, motivlər konkret vəziyyətdə insanın məhz belə hərəkət etməsinin səbəblərini başa düşməyə imkan verir.

Dissertasiya işində hüquq subyektinin davranışının hüquqi motivasiyasının iki mərhələsi ayrılır. Birinci mərhələdə gələcək hüquqauyğun davranışın zəruri istiqamətini təmin etmək məsələsi həll edilir. Yəni, hüquq subyektinin maraqları dərk edilmiş tələbatların

sərbəst təmin edilməsi istiqamətində deyil, əsasları hüquq prinsiplərində, normalarında əks olunmuş istiqamətdə reallaşdırılmasına yönəldilir. Bu halda hüquq cəmiyyətin, dövlətin qəbul etdiyi hərəkətlər etalonu kimi çıxış edir və insanların şüurunda müvafiq davranış variantının xeyrinə müəyyən motivlər yaradır.

Hüquqi motivasiyanın ikinci mərhələsində motivlərin «mübarizəsi» baş verir. Bu bir tərəfdən, hüquq normalarının, digər tərəfdən isə ətraf mühitin təsiri ilə baş verir. Bunun nəticəsində hüquq subyektində hüquqi davranışa subyektiv dəyər münasibəti formalaşır, məqsəd dərk edilir və konkretləşdirilir, yaranmış tələbatların ödənilməsi prosesində subyektin can atacağı nəticə ehtimal edilir. Bu cəhətdən motivasiya şəxsin konkret vəziyyətlərdə normativ göstərişlərə və ya vəzifəli şəxslərin fərdi aktlarına hansı səbəblərə görə əməl etməyi qərara aldığını və ya şüurlu şəkildə bunlara etinasızlıq göstərdiyini izah edir.

İkinci fəslin **ikinci yarımfəsli «Hüquqauyğun davranışın hüquqi və psixoloji xarakteristikası»na** həsr olunub. Hüquqauyğun davranış insanın mədəni-əxlaqi görüşləri və hüququn sosial sahədə təsir təcrübəsi ilə şərtləndirilən və onun məqsəd və tələblərinin şüurlu surətdə yerinə yetirilməsinə əsaslanan fəaliyyətidir. Şəxsiyyətin hüquqauyğun davranışı fərdi-iradəvi proseslərin elə vəziyyətidir ki, bu zaman ictimai-məcburi davranış motivləri ictimai zərərli davranış motivlərindən üstün olur.

Hüquqauyğun davranış hər zaman hüquq normalarının tələblərinə uyğun gəlir. Əgər insan hüquqi göstərişlərə dəqiq əməl edirsə, hüquqauyğun hərəkət etmiş hesab olunur. Bu, davranışın formal-hüquqi meyarıdır. Əksər hallarda hüquqauyğun davranış hüquq normalarını pozmayan davranış kimi izah edilir. Lakin bu kimi izah həmin hüquqi hadisənin məzmununu dəqiq əks etdirmir, çünki hüquqi göstərişə zidd olmayan davranış hüquqi tənzimetmə sahəsindən kənarda baş verə bilər, yəni hüquqi cəhətdən əhəmiyyətsiz ola bilər.

Hüquqauyğun davranış, adətən, sosial faydalıdır. Bu, həyat tərzinə uyğun, faydalı (arzuolunan), bəzən isə cəmiyyətin normal fəaliyyəti üçün zəruri hərəkətlərdir. O, həm də şəxs üçün müsbət rol oynayır, çünki onun sayəsində insanın hüquq və azadlıqları təmin edilir, qanuni maraqları müdafiə edilir.

Hüquqauyğun davranışın tədqiqi həm insan qruplarının, həm də ayrı-ayrı adamların davranışlarının psixoloji aspektlərinin nəzərə alınmasını tələb edir. Sosial normaların əksəriyyəti insanların şüur və hərəkətlərində cəmiyyətin obyektiv qanunauyğunluqlarının əks olunmasının nəticəsi

kimi formalaşır. Normalar fərdin qrupa, sosial birliyə daxil olmasını asanlaşdırır, insanların qarşılıqlı fəaliyyətinə kömək göstərir, sosial institutların funksiyalarının müvafiq qaydada yerinə yetirilməsinə təsir edir. Ancaq obyektiv qanunauyğunluqların əks olunması qeyri-adekvat, təhrif olunmuş, ziddiyyətli ola bilər. Bu halda müəyyən edilmiş hüquqi qayda mənfi təsir göstərə bilər. Belə vəziyyət mövcud hüquqi qaydadan yayınmanı şərtləndirir, yəni hüquqi qayda qeyri-normal, ondan yayınmalar isə normal qəbul olunur. Bəzən bu, qanunvericinin nöqsanları nəticəsində, rəsmi müəyyənləşdirilmiş normalar sisteminin fəaliyyəti pozulduqda baş verir.

İkinci fəslin «**Hüquqi nihilizm hüquqazidd davranışın strukturunda**» adlanan **üçüncü yarımfəslində** qeyd olunur ki, fərdin hüquqazidd davranışı mürəkkəb sosial-psixoloji və hüquqi proseslərin nəticəsidir. Müasir cəmiyyətdə mütərəqqi hüquqi institutların bərqərar olması ilə yanaşı, hüquqi nihilizm kimi neqativ sosial hadisələrin yayılması də müşahidə edilir. O, hüquqi davranış sahəsində təzahür edir və qanunun gücünə, hüquqi müdafiə imkanlarına etimadsızlıq yaradır, ən kəskin təzahür növündə isə hüquqazidd davranış doğurur.

Hüquqi nihilizm vətəndaşların müəyyən hissəsinin hüquq haqqında təsəvvürlərini sarsıdır və hüquq onlar üçün müəyyən siyasi və şəxsi eqoist məqsədlərə nail olma aləti şəklini alır. Cəmiyyətdə hüquqa insan hüquqlarının müdafiə vasitəsi kimi etimadın itməsi avtomatik olaraq, özünümüdafiənin qeyri-hüquqi, hüquqazidd formalarının - özbaşınalığın, kriminal qazanc əldə etmə və varlanma yollarının və s. mənəvi cəhətdən əsaslandırılmasına və haqq qazandırılmasına gətirib çıxarır.

Yalnız neqativ xarakterli iradəvi hərəkətlər hüquq pozuntusu hesab edilə bilər, yəni bunlar şəxsin iradə və şüurundan asılı olan, onun tərəfindən könüllü yerinə yetirilən hərəkətlərdir. Şüurun nəzarət etmədiyi davranışı, başqa bir davranış variantı seçməyə imkan verməyən vəziyyətdə baş vermiş davranışı hüquq pozuntusu adlandırmaq olmaz. Buna görə də yalnız hüquq qabiliyyəti olan şəxslərin neqativ yönümlü davranış variantları hüquq pozuntusu hesab edilir. Yalnız o hərəkət hüquq pozuntusu hesab edilir ki, bunu edən şəxs onun hüquqa zidd olduğunu, öz davranışı ilə ictimai maraqlara ziyan vurduğunu anlayır. Hüquq pozuntusu həmişə hüquqazidd, hüquq normalarının tələblərini pozan hərəkətlərdir. Bu, ya qadağaların pozulması, ya da vəzifələrin yerinə yetirilməməsidir. Bir qayda olaraq, hüquq normasının realizəsi ilə əlaqədar sıravi vətəndaşın aktiv hərəkətlərin edilməsindən çəkinmə hüquq pozuntusu deyil. Hüquqazidd olma əlaməti hüquq pozuntusunu

formal-hüquqi cəhətdən xarakterizə edir. Məlumdur ki, heç bir kəsin hüquqları qanunsuz məhdudlaşdırıla bilməz və hüquq göstərişləri çərçivəsində baş verən hər hansı hərəkət hüquqazidd hesab edilə bilməz. Hüquqauyğun hərəkətlərin məzmununun ifadəsindən fərqli olaraq, hüquqazidd hərəkətlər hüquq normalarında qadağalar şəklində hər zaman aydın ifadə edilməlidir.

Dissertasiya işinin iki yarımfəsildən ibarət **üçüncü fəslində** «**Hüquqi nihilizmin aradan qaldırılması problemi**» **araşdırılır**. Bu fəslin «**Hüquqi nihilizmin aradan qaldırılması tədbirləri**» adlanan **birinci yarımfəslində** qeyd olunur ki, müasir hüquqi nihilizm dərin kök salmış xəstəlikdir. Həmin xəstəliyin aradan qaldırılması hüquqi dövlət quruculuğuna yardım edən önəmli amildir. Bu istiqamətdə aparılan fəaliyyətin ən mühüm hissəsini siyasi tədbirlər təşkil edir. Bunlar bilavasitə hüquqi dövlət quruculuğuna mane olan amillərin aradan qaldırılması ilə bağlıdır və hüquqi nihilizmlə mübarizənin aşağıdakı dövlət-hüquqi yollarını nəzərdə tuturlar: qanunçuluğun və hüquq qaydasının möhkəmləndirməsi; insan hüquq və azadlıqlarının təmin edilməsi; qanunvericiliyin təkmilləşdirilməsi, hüquq yaradıcılığı keyfiyyətinin yüksəldilməsi; qanun və qanunqüvvəli normiativ hüquqi aktların göstərişləri arasındakı ziddiyyətlərin aradan qaldırılması; vahid hüquqi məkanın yaradılması; hüquq pozuntularının profilaktikası; korrupsiya ilə mübarizə və s.

İkinci növ işlərin məzmununu sosial-iqtisadi tədbirlər təşkil edir. İddiaçının fikrincə, bunlara aşağıdakılar aiddir: vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi; yoxsulluğun, işsizliyin azaldılması; yaşayış minimumunun təmin edilməsi; vətəndaşların ayrı-ayrı kateqoriyalarının həm də maddi stimullaşdırılması; əhalinin yoxsul və varlı təbəqəsi arasındakı fərqin azaldılması, sosial ədalətin bərqərar olması və s.

Nəhayət, bu fəaliyyət üzrə üçüncü növ işləri mədəni, mənəvi, əxlaqi tədbirlər təşkil edir ki, bunlara da aşağıdakılar daxil edilməlidir: əhalinin hüquqi mədəniyyətinin inkişafı; hüquq düşüncəsi səviyyəsinin yüksəldilməsi; fəal surətdə aparılan hüquqi təbliğat; yüksək səviyyəli hüquqşünasların hazırlanması; cəmiyyətin bütün sahələrini əhatə edən hüquqi islahatların aparılması.

Dissertasiya işinin müvafiq hissəsində qeyd olunur ki, hüquqi nihilizmin konkret təzahürlərinə qarşı tədbirlər sistemli olmalıdır. Hüquqi nihilizmin aradan qaldırılması uzunmüddətli prosesdir, obyektiv həyat şəraitindəki dəyişikliklərlə, məqsədyönlü ideoloji, təşkilati işlərlə,

xüsusi hüquqi tədbirlər kompleksinin həyata keçirilməsi məsələləri ilə sıx əlaqədardır. Bütövlükdə bu tədbirlər yeni sosial-hüquqi mühitin yaradılmasına və insanlarda hüququn gücünə inamın artmasına yönəldilməlidir.

Hər bir dövlətin hüquq sisteminin inkişaf strategiyası, ən əvvəl, şəxsiyyətə, onun hüquq və qanuni maraqlarının təmin olunmasına, vətəndaşlarda məsuliyyət hissinin güclənməsinə yönəlməlidir. Dövlətin hüquq siyasətinin insanın hüquq və qanuni mənafelərinin mühafizəsinə yönəldilməsi, şübhəsiz, əhalidə milli hüquq sisteminə daha böyük nüfuz verəcək.

Digər faktor qismində normayaratma və hüquq tətbiqetmə orqanların fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilmiş tədbirlər çıxış edir. Bura həmçinin normayaratma subyektlərinin peşəkarlığının artırılması üzrə görülən işləri də daxil etmək lazımdır. Müvafiq sahədə olan çatışmazlıqlar, habelə əhalinin hüquq mədəniyyətinin aşağı səviyyəsi, sıravi vətəndaşların hüquqi biliklərinin məhdudluğu hüquqi nihilizmin səviyyəsinə birbaşa təsir göstərir.

Hüquqi nihilizmin aradan qaldırılmasının hüquqi üsulları sistemində mühüm tədbirlərdən biri hüquq normalarının reallaşdırılması mexanizminin, xüsusən insan hüquqlarının müdafiəsi ilə bağlı olan qaydaların təkmilləşdirilməsidir.

Hüquqi nihilizmin aradan qaldırılmasının növbəti üsulu hüquq-mühafizə fəaliyyətinin nüfuzunun yüksəldilməsi, bu fəaliyyəti həyata keçirən şəxslərə və institutlara dair vətəndaşların etibarını möhkəmləndirməkdir. Buna nail olmaq üçün, ilk növbədə, cinayətkarlıqla mübarizəni gücləndirmək və fəal hüquqauyğun davranış modelini bərqərar etmək lazımdır. Bu fəaliyyətin əsas istiqamətləri kimi insan hüquqlarının ictimai həyatın bütün sahələrində təmin edilməsi; mülkiyyətin bütün formalarının səmərəli müdafiəsi; korrupsiya hallarının aradan qaldırılması; ekstremizmə, separatizmə və terrorizmə qarşı təsirli tədbirlərin görülməsi; hüquq mühafizə sistemində aparılan islahatların davam edilməsi; beynəlxalq əməkdaşlığın inkişafı və s. çıxış edirlər.

Hüquqi nihilizmin qarşısının alınmasında zəruri tədbirlər kimi hüquq texnikasının inkişafını, qanunvericiliyin mütəmadi olaraq təkmilləşdirilməsini, yəni hüquq mənbələrinin keyfiyyətinin artırılmasını da qeyd etmək lazımdır. Bu tədbirlər yalnız kompleks şəklində həyata keçirildiyi halda hüquqi nihilizmın səviyyəsinin tədricən azalmasına nail olmaq mümkündür. Bu zaman normativ hüquqi bazada ziddiyyətlərin aradan qaldırılması hüquqi nihilizmlə mübarizənin mütləq şərti kimi

çıxış edir.

Üçüncü fəslin **ikinci yarımfəsli «Hüquqauyğun davranışın formalaşdırılması problemi»** adlanır. Burada ilk əvvəl qeyd olunur ki, hər bir hüquqazidd davranış nəinki onu törədən subyektdə cəmiyyətə qarşı mənfi münasibət formalaşdırır, habelə bəzən digər hüquq subyektlərində də hüquqa zidd olan təyinatların yaranmasına təkan verir. Hüquq sahəsində hər bir şəxsdə hüquqi biliklər sisteminin (yaxın məqsəd), hüquqi əqidənin (aralıq məqsəd) və ictimai-faydalı fəal davranış vərdişlərin formalaşdırılması (son məqsəd) mühüm əhəmiyyətə malikdir.

Şəxsiyyətdə cəmiyyətin maraqlarına cavab verən mütərəqqi hüquqi dəyərlərinin formalaşdırılması mürəkkəb və uzun prosesdir. Demokratik rejim şəraitində, sözsüz ki, əksər hallarda belə dəyərlərin təsiri daha güclü olur və yaranan hüquqi ziddiyyətlər bu dəyərlərin mənimsənilməsi yolu ilə həll edilir.

Əsl dəyərlərə doğru istiqamətlənmə və ya köklənmə həyatda fəal mövqeyin formalaşmasına, həmçinin hüquqi gerçəklik sahəsində hüquqauyğun davranış qaydasının bərqərar olunmasına köməklik edir. Müəllifin fikrincə, köklənmə hər hansı bir vəziyyətə müəyyən üsulla təsir etmək barədə şəxsdə yaranan vərdişdir.

Subyektlərin hüquqi fəallığı intensiv olmalıdır. Hüquqi gerçəklik sahəsində fəal davranışın əlaməti kimi intensivlik tərkib etibarilə həyata keçirilən subyektiv hüquqların və hüquqi vəzifələrinin həcmini və həyata keçirilmə sürətini də ehtiva edir. Həyata keçirilən subyektiv hüquqların və hüquqi vəzifələrin həcmi vətəndaşlarda Konstitusiya və cari qanunlarda bəyan edilən siyasi, sosial-iqtisadi hüquq və azadlıqların nə dərəcədə realizə olunması barədə təsəvvür yaradır. Belə realizə gerçəklikdə yalnız bütövlükdə ictimai şəraitdən, sosial və hüquqi amillərdən deyil, həm də fərdlərin iddiaçı, cavabdeh, ərizəçi və s. qismində çıxış edərkən hüquqi imkanlardan istifadə etmək bacarığından asılıdır.

Nəhayət, dissertasiya işinin **nəticə** hissəsində hüquqi nihilizmin aradan qaldırılması və hüquqauyğun davranışın bərqərar olması üzrə zəruri tədbirlərin həyata keçirilməsi barədə tövsiyələr verilir.

**Dissertasiya tədqiqatının əsas müddəaları müəllif tərəfindən çap etdirilmiş aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:**


1) Hüquqi nihilizmin formaları // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2012, № 4, səh. 39-47.

2) Hüquqi nihilizmin mahiyyətinə dair // İnsan hüquqları haqqında ümumdünya Bəyannaməsinin qəbulunun 64-cü ildönümünə həsr edilmiş beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2013, səh. 33-36.

3) Hüquqi nihilizmin strukturu və səviyyələri // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2013, № 2, səh. 44-51.

4) Сущность правого нигилизма // Право и Государство, 2013, №10, с. 80-83.

5) Hüquqauyğun davranışın hüquqi və psixoloji xarakteristikası // Nəqliyyat hüququ, 2015, №2, səh. 222-231.

6) Hüquqauyğun davranışın formalaşması // Qanun, 2015, №4, səh. 33-46.

7) Hüquqi nihilizm sosial-tarixi hadisə kimi // AR Konstitusiyasının qəbulunun 20-ci, BMT-nin və YUNESKO-nun yaradılmasının 70-ci, 1950-ci il Avropa Konvensiyasının qəbulunun 65-ci, 10 dekabr 1948-ci il tarixli İnsan hüquqları haqqında Ümumi Bəyannamənin qəbul edilməsinin növbəti ildönümünə həsr olunmuş «Avropa hüququ və milli qanunvericilik: qarşılıqlı əlaqələrin formalaşması və inkişaf perspektivləri» adlı Beynəlxalq elmi-praktiki konfrans (1 dekabr 2015-ci il) (çapdadır).

# РЕЗЮМЕ

Диссертационная работа Эльмеддина Низамеддин оглы Гамидова на тему «Правовой нигилизм и правовое поведение», представленная на соискание ученой степени доктора философии по праву по специальности 5606.01-Теория и история государства и права; история учений о праве и государстве, является первой монографической работой, посвященной исследованию вопросов соотношения правового нигилизма и правового поведения. В ней подвергнуты глубокому анализу понятие, правовая природа, причины возникновения, структура правового нигилизма, понятие правового поведения, его характерные черты и особенности, социальная значимость, соотношение правового нигилизма и правомерного поведения и др.

Диссертационная работа состоит из введения, трех глав, включающих в себя десять параграфов, заключения и списка литературы.

Во введении обоснована актуальность темы исследования, определены цели и задачи работы, теоретическая и практическая значимость, степень разработанности проблемы, показана научная новизна диссертации, сформулированы выносимые на защиту основные положения, а также результаты апробации исследования.

Первая глава диссертации – «**Понятие и сущность правового нигилизма»** – состоит из пяти параграфов. Правовой нигилизм рассматривается как деформированное правовое сознание, включающее осознанное игнорирование требований права. В соответствии с авторским подходом, правовой нигилизм есть социально-правовое явление, препятствующее реформированию общества и его правовой системы. Обосновывается, что правовой нигилизм представляет собой органическое единство идеологического, психологического и поведенческого компонентов.

Вторая глава диссертации – **«Социально-правовые и психологические характеристики правового поведения»** – состоит из трех параграфов, в которых дан подробный анализ правового поведения как в социально-психологическом, так и в юридическом аспектах. Отмечается, что учет психологических составляющих правового поведения имеет огромное значение не только для пресечения неправомерных действий, но и в аспекте побуждения к правомерному поведению.

Третья глава диссертации – **«Проблема преодоления правового нигилизма»** – состоит из двух параграфов и посвящена вопросам преодоления негативного типа правового сознания и утверждения правомерного поведения. Отмечается важность выработки комплексной концепции относительно искоренения дефектов правосознания, негативных проявлений правовой культуры, повышения эффективности правового воспитания.

В **заключении** диссертации представлены полученные в ходе исследования важные выводы и предложения, дан ряд практических рекомендаций.

## SUMMARY

The thesis «Legal nihilism and legal behavior», presented by Elmaddin Nizamaddin oglu Hamidov for the degree of philosophy doctor in law in speciality 5606.01 – Theory and history of state and law; history of law and state doctrines, is the first monographic work devoted to the study of the correlation of legal nihilism and legal behavior. It was performed a deep analysis of the concept, legal nature, causes, structure of legal nihilism, the concept of legal behavior, its distinctive features and characteristics, social importance, ratio of legal nihilism and lawful behavior and others.

The thesis consists of an introduction, three chapters, which include ten paragraphs, conclusion and bibliography.

The introduction provides information about the relevance of the research topic, defines goals and objectives, theoretical and practical significance, the degree of the problem elaboration, shown scientific novelty of the thesis, formulates the basic provisions and the results of the research.

The first chapter of the thesis – «**The concept and essence of legal nihilism**» – consists from five sections. Legal nihilism is regarded as deformed legal consciousness, including a conscious disregard of the rule of law. In accordance with the author's approach, the legal nihilism is the social and legal phenomenon that delays the reform of society and its legal system. It is formulated that legal nihilism is an organic unity of ideological, psychological and behavioral components.

The second chapter – «**Socio-legal and psychological characteristics of legal behavior**» – consists of three sections, which provide a detailed analysis of the legal behavior as a psycho-social and legal aspects. It is noted that consideration of the psychological component of legal behavior has a great importance not only for the prevention of unlawful acts, but also in the aspect of motivation a good behavior.

The third chapter of the thesis – «**The problem of overcoming legal nihilism**» – consists of two sections. This chapter is devoted to the issues of overcoming the negative type of legal awareness and approval of lawful behavior. It is underlined the necessity of development of complex concept to eliminate the defects of legal consciousness, negative aspects of legal culture and to improve the effectiveness of legal education.

The important findings, suggestions and practical recommendations are represented in the conclusion.

Format: 60x84 1/16. Tiraj: 100 nüsxə.

«Bakı Universiteti» nəşriyyatı
AZ-1148, Bakı, Z. Xəlilov küçəsi, 23

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ЭЛЬМЕДДИН НИЗАМЕДДИН оглы ГАМИДОВ**

# ПРАВОВОЙ НИГИЛИЗМ
# И ПРАВОВОЕ ПОВЕДЕНИЕ

**Специальность:** 5606.01 – Теория и история государства и права; история учений о праве и государстве

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по праву**

**Баку – 2016**